# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

**“Bakı şəhərətrafı dəmiryol nəqliyyatı ilə sərnişindaşıma fəaliyyəti üzrə subsidiya verilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında**

“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Bakı şəhərətrafı dəmiryol nəqliyyatı ilə sərnişindaşıma fəaliyyəti üzrə subsidiya verilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 27 mart 2024-cü il

№ 178

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2024-cü il 27 mart
tarixli 178 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Bakı şəhərətrafı dəmiryol nəqliyyatı ilə sərnişindaşıma fəaliyyəti üzrə subsidiya verilməsi

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.1-1-ci bəndinin icrası məqsədilə hazırlanmışdır və dəmir yolu nəqliyyatı ilə sərnişinlərin daşınması fəaliyyətinin subsidiyalaşdırılması qaydalarını müəyyən edir.

1.2. Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **marşrut** - Bakı-Pirşağı-Sumqayıt istiqamətində Bakı, Keşlə, Koroğlu, Bakıxanov, Sabunçu, Zabrat-1, Zabrat-2, Məmmədli, Pirşağı, Görədil, Novxanı, Sumqayıt stansiya və ya dayanacaqları, həmçinin Bakı-Xırdalan-Sumqayıt istiqamətində Bakı, Biləcəri, Xırdalan, Sumqayıt stansiya və dayanacaqları arasında qatarın getdiyi yol;

1.2.2. **sərnişin** - gediş sənədi (bilet və ya elektron gediş sənədi) ilə qatarda səfər edən, yaxud dəmiryol vağzalının (stansiyanın) və ya sərnişin platformasının ərazisində dəmir yolu nəqliyyat vasitəsində gediş sənədi olan fiziki şəxs;

1.2.3. **şəhərətrafı dəmiryol nəqliyyatı** - dəmir yolu ilə sərnişinlərin, baqajın, yük-baqajın daşımalarının yerinə yetirilməsi üçün dəmiryol hərəkət tərkiblərinə daxil olan elektrik qatarları, dizel qatarları, baqaj vaqonları və oturacaqları kreslo ilə təchiz edilmiş sərnişin vaqonları;

1.2.4. **daşıyıcı** - “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti;

1.2.5. **hərəkət tərkibi** - dəmiryol nəqliyyatı sistemində bilavasitə sərnişinləri daşıyan dəmiryol nəqliyyatı vasitəsidir (elektrik qatarları, dizel qatarları, sərnişin lokomotivləri, baqaj vaqonları və oturacaqları kreslo ilə təchiz edilmiş sərnişin vaqonları);

1.2.6. **subsidiya** - dəmir yolu nəqliyyatı vasitəsilə marşrut üzrə sərnişinlərin müəyyən edilmiş tariflərlə daşınması fəaliyyəti nəticəsində yaranmış zərərlə əlaqədar daşıyıcıya dövlət tərəfindən əvəzsiz verilən maliyyə vəsaiti.

1.3. Sərnişindaşıma fəaliyyəti nəticəsində gəlirlər (gediş haqqından və digər xidmətlərin göstərilməsindən əldə olunmuş gəlirlər) daşıyıcıda saxlanılır və həmin vəsait fəaliyyətin göstərilməsi üçün istifadə olunur.

## 2. Subsidiyanın müəyyən edilməsi

2.1. Marşrut üzrə sərnişindaşıma fəaliyyəti ilə əlaqədar subsidiya verilməsi məqsədilə aşağıdakı gəlirlər nəzərə alınır:

2.1.1. gediş haqları üzrə gəlirlər;

2.1.2. sair gəlirlər (reklam və sərnişindaşıma fəaliyyəti ilə əlaqədar yaranan digər gəlirlər).

2.2. Marşrut üzrə sərnişindaşıma fəaliyyəti ilə əlaqədar subsidiya verilməsi məqsədilə aşağıdakı xərclər nəzərə alınır:

2.2.1. marşrutlar üzrə stansiyalarda, qatarlarda olan işçilərin və bu marşrutlara bilavasitə xidmət edən digər struktur vahidlərində çalışan işçilərin əməkhaqqı və əməkhaqqına görə ayırmalar;

2.2.2. enerji xərcləri;

2.2.3. hərəkət tərkibinin təmiri və ehtiyat hissələri ilə bağlı xərclər;

2.2.4. sığorta xərcləri;

2.2.5. müvafiq marşrut üzrə istifadə olunan dəmir yolu stansiyalarının və sərnişin platformalarının saxlanma və istismar xərcləri;

2.2.6. Sərnişindaşıma departamentinin aparatının saxlanması ilə bağlı xərclər (ümumi xərclərdə xüsusi çəkisi tapılmaqla hesablanılır);

2.2.7. sərnişindaşıma fəaliyyətinin həyata keçirilməsi zamanı istifadə olunan və öz vəsaitləri hesabına əldə olunan əsas vəsaitlərin amortizasiya məbləği;

2.2.8. sərnişindaşıma fəaliyyətinin həyata keçirilməsi zamanı istifadə olunan əsas vəsaitlərin öz vəsaitləri hesabına kapitallaşdırılmış əsaslı təmir məsrəfləri üzrə amortizasiya məbləği;

2.2.9. sərnişindaşıma fəaliyyətinin həyata keçirilməsi üçün əsas vəsaitlərin alınması (tikilməsi və ya quraşdırılması) ilə əlaqədar əldə edilmiş kreditlər üzrə faiz məbləğləri və gəlirdən çıxılan vergilər;

2.2.10. marşrutlar üzrə infrastrukturun istismarı və saxlanması xərcləri;

2.2.11. xidmətin göstərilməsi üçün digər əməliyyat xərcləri;

2.2.12. birbaşa sərnişindaşıma fəaliyyətinə aid edilməsi mümkün olmayan xərclər (ümumi xərclərdə xüsusi çəkisi tapılmaqla hesablanılır).

2.3. Daşıyıcının dəmir yolu nəqliyyatı vasitəsilə marşrut üzrə ardıcıl ikiillik sərnişindaşıma fəaliyyəti zərərlə nəticələndiyi halda, daşıyıcıya subsidiya verilir.

2.4. Subsidiya daşıyıcının bu Qaydaların 3-cü hissəsində göstərilən qaydada hesablanılmış ortaillik xərc məbləğinin 50 faizindən və ortaillik zərər məbləğindən artıq olmamaqla müəyyən edilir.

## 3. Subsidiya məbləğinin hesablanması

3.1. Subsidiya məbləğinin müəyyən edilməsi üçün ortaillik zərər məbləği və ortaillik xərc məbləği aşağıdakı kimi hesablanılır:

3.1.1. ikiillik dövr ərzində sərnişinlərin cəmi sayı ($S_{fp}$) keçən maliyyə ili və cari ilin birinci yarımillik dövrü üzrə faktiki sərnişinlərin sayı və cari ilin ikinci yarımillik dövrü üzrə gözlənilən sərnişinlərin sayının cəmindən ibarət olmaqla aşağıdakı düstura əsasən hesablanılır:

$$S_{fp} = S_f + S_{f1} + S_p$$

3.1.2. bir sərnişinə düşən orta çəkili gəlir məbləği ($G_s$) bu Qaydaların 2.1-ci bəndi ilə müəyyən edilmiş gəlir növləri üzrə ikiillik gəlirlərin (keçən maliyyə ili, cari ilin birinci yarımillik dövrü üzrə faktiki gəlirlərin və ikinci yarımillik dövrü üzrə gözlənilən gəlirlərin) cəmi məbləğinin həmin dövr ərzində sərnişinlərin cəmi sayına bölünməsi ilə aşağıdakı düstura əsasən hesablanılır:

$$G_s = [G_f + G_{f1} + G_p] / S_{fp}$$

3.1.3. bir sərnişinə düşən orta çəkili xərc məbləği ($X_s$) bu Qaydaların 2.2-ci bəndi ilə müəyyən edilmiş xərc növləri üzrə ikiillik xərclərin (keçən maliyyə ili, cari ilin birinci yarımillik dövrü üzrə xərclərin və ikinci yarımillik dövrü üzrə gözlənilən xərclərin) cəmi məbləğinin həmin dövr ərzində sərnişinlərin cəmi sayına bölünməsi ilə aşağıdakı düstura əsasən hesablanılır:

$$X_s = [X_f + X_{f1} + X_p] / S_{fp}$$

3.1.4. bir sərnişinə düşən orta çəkili gəlirdən 1 sərnişinə düşən orta çəkili xərc məbləği çıxılmaqla fərq hesablanılır;

$$F = G_s - X_s$$

3.1.5. fərq məbləği mənfi olduğu təqdirdə bir sərnişinə düşən orta çəkili zərər (mənfi fərq) məbləği həmin dövr (iki maliyyə ili) ərzində dəmir yolu nəqliyyatından istifadə edən sərnişinlərin ortaillik sayına vurulmaqla ortaillik zərər məbləği ($Z_s$) aşağıdakı düstura əsasən hesablanılır:

$$F < 0, \quad Z_s = F$$

$$S_{or} = S_{fp} /2$$

$$Z = Z_s \text{ x } S_{or}$$

3.2. Subsidiyanın məbləği ortaillik xərc məbləğinin 50 faizindən və ortaillik zərər məbləğindən artıq olmamaqla aşağıdakı kimi müəyyən edilir.

$$[X_s \text{ x } S_{or}] \text{ x } 50\% < SM < Z$$

**Qeydlər:**

F – bir sərnişinə düşən orta çəkili gəlirlə 1 sərnişinə düşən orta çəkili xərc məbləğinin fərqi;

$G_s$ – bir sərnişinə düşən orta çəkili gəlir məbləği;

$G_f$ – keçən maliyyə ili ərzində faktiki gəlirlər;

$G_{f1}$ – cari maliyyə ilinin birinci yarımillik dövrü ərzində faktiki gəlirlər;

$G_p$ – cari maliyyə ilinin ikinci yarımillik dövrü ərzində proqnozlaşdırılan gəlirlər;

$X_s$ – bir sərnişinə düşən orta çəkili xərc məbləği;

$X_f$ – keçən maliyyə ili ərzində faktiki xərc məbləği;

$X_{f1}$ – cari maliyyə ilinin birinci yarımillik dövrü ərzində faktiki xərc məbləği;

$X_p$ – cari maliyyə ilinin ikinci yarımillik dövrü ərzində proqnozlaşdırılan xərc məbləği;

$S_f$ – keçən maliyyə ili ərzində faktiki sərnişinlərin sayı;

$S_{f1}$ – cari maliyyə ilinin birinci yarımillik dövrü ərzində sərnişinlərin faktiki sayı;

$S_p$ – cari maliyyə ilinin ikinci yarımillik dövrü ərzində sərnişinlərin proqnozlaşdırılan sayı;

$S_{fp}$ – keçən maliyyə ili və cari ilin birinci yarımillik dövrü üzrə sərnişinlərin faktiki sayı və cari ilin ikinci yarımillik dövrü üzrə sərnişinlərin gözlənilən sayının cəmi;

$S_{or}$ – keçən maliyyə ili və cari ilin birinci yarımillik dövrü üzrə sərnişinlərin faktiki sayı və cari ilin ikinci yarımillik dövrü üzrə gözlənilən sərnişinlərin sayının cəminin yarısı (1/2 hissəsi);

SM – subsidiya məbləği;

$Z_s$ – bir sərnişinə düşən orta çəkili zərər məbləği;

Z – ortaillik zərər məbləği.

## 4. Subsidiya məbləğinin proqnozlaşdırılması üçün prosedur qaydası

4.1. Daşıyıcı marşrut üzrə sərnişinlərin daşınması fəaliyyəti ilə əlaqədar yaranan zərərin bu Qaydaların 2.3-cü bəndinə uyğun olaraq ödənilməsi məqsədilə dövlət büdcəsinin layihəsində nəzərə alınması üçün cari ilin 15 iyul tarixindən gec olmayaraq Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə müraciət edir. Müraciətə bu Qaydalara uyğun olaraq gəlir və xərc məbləğləri, habelə sərnişinlərin sayı barədə məlumatları və təsdiqedici sənədləri (maliyyə hesabatları, bu Qaydaların 2.1-ci və 2.2-ci bəndlərində göstərilən gəlir və xərclər, habelə sərnişinlərin sayı üzrə daşıyıcının hesabatı), onların əsasında hesablanmış subsidiya məbləği barədə məlumatı əlavə edilir.

4.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən daşıyıcının təqdim etdiyi məlumatlar və təsdiqedici sənədlər daşıyıcının hesabladığı subsidiya məbləği yoxlanılır və cari ilin 15 avqust tarixindən gec olmayaraq razılaşdırılmış proqnoz subsidiya

məbləği ilə əlaqədar Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və daşıyıcı arasında bu Qaydalara əlavə edilmiş nümunəvi formaya uyğun Çərçivə Protokolu imzalanır və nəzərə alınır.

4.3. Bu Qaydaların tələblərinə uyğun olaraq razılaşdırılmış proqnoz subsidiya məbləğinə əsasən növbəti il üçün dövlət büdcəsinin tərtibində daşıyıcı üçün ayrılacaq subsidiya məbləği nəzərə alınır.

## 5. Subsidiya məbləğinin nəzərə alınması və ödənilməsi

5.1. Bu Qaydaların 4-cü hissəsinin tələblərinə uyğun olaraq hesablanılmış və dövlət büdcəsində nəzərə alınmış subsidiyanın ödənilməsi cari il ərzində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə daşıyıcı arasında razılaşdırılmış bölgüyə əsasən həyata keçirilir.

5.2. Cari ilin yanvar ayının 31-dək daşıyıcı tərəfindən ötən il üzrə dövlət büdcəsindən ayrılmış subsidiyanın istifadəsi barədə hesabat Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilir və ötən il ərzində faktiki sərnişinlərin sayı, gəlirləri və xərcləri əsasında aparılan hesablamalar nəticəsində daşıyıcıya artıq ödənilən subsidiya məbləği müəyyən edildiyi təqdirdə, onun cari ildə daşıyıcıya ödəniləcək subsidiya məbləğinin ödənilməsi zamanı nəzərə alınması təmin edilir.

“Bakı şəhərətrafı dəmiryol nəqliyyatı
ilə sərnişindaşıma fəaliyyəti üzrə
subsidiya verilməsi Qaydaları”na

**əlavə**

## Subsidiyalaşdırılması nəzərdə tutulan marşrutlar (Bakı-Pirşağı-Sumqayıt və Bakı-Xırdalan-Sumqayıt) üzrə 20____ il üçün subsidiya məbləğinin hesablanmasına dair Çərçivə Protokolunun

## NÜMUNƏVİ FORMASI

| Sıra №-si | Xərc istiqamətləri | Məbləğ (min manatla) | Qeyd |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **1.** | **Cəmi xərclər:<br>o cümlədən** | | |
| **1.1.** | **Əməkhaqqı xərcləri cəmi** | | |
| | **o cümlədən:** | | |
| 1.1.1. | ştadler maşinist və maşinist köməkçiləri üzrə | | |
| 1.1.2. | elektrovoz maşinistləri üzrə | | |
| 1.1.3. | bələdçilər üzrə | | |
| 1.1.4. | bilet satış məntəqələri üzrə | | |
| 1.1.5. | Böyükşor stansiyası üzrə | | |
| 1.1.6. | hərəkətin təşkili və idarə edilməsi sahəsi üzrə | | |
| 1.1.7. | inzibati işçilər üzrə | | |
| 1.1.8. | istehsalat sahəsi üzrə | | |
| 1.1.9. | Keşlə dayanacağı üzrə | | |
| 1.1.10. | Koroğlu dayanacağı üzrə | | |
| 1.1.11. | məlumatların verilməsi briqada-sı üzrə | | |
| 1.1.12. | N.Nərimanov stansiyası üzrə | | |
| 1.1.13. | şəhərətrafı qatarlar üzrə xidmət sahəsi | | |
| 1.1.14. | təsərrüfat sahəsi üzrə | | |
| 1.1.15. | texniki istehsalat bölməsi üzrə | | |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 1.1.16. | xətti stansiyalar üzrə | | |
| 1.1.17. | xüsusi təyinatlı otaqlar üzrə | | |
| 1.1.18. | yardımçı təsərrüfat sexi üzrə | | |
| 1.1.19. | Bakı sərnişin stansiyası üzrə | | |
| 1.1.20. | şəhərətrafı daşımalar üzrə | | |
| 1.1.21. | Bakı lokomotiv deposu üzrə | | |
| 1.1.22. | Bakı vaqon deposu üzrə | | |
| 1.1.23. | insan resursları bölməsi üzrə | | |
| 1.1.24. | lokomotivlərin işinin təşkili, xidməti və təchizetmə bölməsi üzrə | | |
| 1.1.25. | sərnişin hərəkət vasitələrinin təmiri xidməti üzrə | | |
| 1.1.26. | sərnişin vaqonlarının, elektrik və dizel qatarlarının işinin təşkili, xidməti və təchizetmə bölməsi üzrə | | |
| 1.1.27. | texniki xidmət mərkəzi işçiləri üzrə | | |
| **1.2.** | **Digər xərclər üzrə cəmi** | | |
| | **o cümlədən:** | | |
| 1.2.1. | elektrik enerjisi xərci (dartı) | | |
| 1.2.2. | əsas vəsaitlərin alınması (tikilməsi və ya quraşdırılması) ilə əlaqədar əldə edilmiş kreditlər üzrə faiz məbləğləri və gəlirdən çıxılan vergilər | | |
| 1.2.3. | xidmətin göstərilməsi üçün dolayı infrastruktur xərcləri | | |
| 1.2.4. | istismar xidməti | | |
| 1.2.5. | Sərnişindaşıma departamentinin aparatı | | |
| 1.2.6. | qatarların təmiri və texniki qulluğu üzrə yeni yaranan xərc | | |
| **2.** | **Sərnişindaşıma fəaliyyəti üzrə cəmi gəlirlər:** | | |
| **3.** | **Fərq (zərər):** | | |

| **Azərbaycan Respublikasının maliyyə naziri** | **Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri** | **“Azərbaycan Dəmir Yolları” QSC-nin sədri** |
|---|---|---|
| ______________________ | ______________________ | ______________________ |
| (imza) | (imza) | (imza) |
| ______________________ | ______________________ | ______________________ |
| (tarix) | (tarix) | (tarix) |

____№-li nüsxə